İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 AVQUST 2021-Cİ İL №016 (139)

Səh. 2 MAMED VƏ QOQİ - AZƏR MUSAOĞLU YAZIR

Səh. 3 İSLAMIN CƏMİYYƏT HƏYATINA QAZANDIRDIĞI DƏYƏRLƏR - HACI BƏKİROĞLU YAZIR

Səh. 4 İMTAHANLARDAN SONRA MÜƏLLİMLƏRİN SAYI 17 192 NƏFƏR AZALIB

Səh. 5 SAXTA PROFİLLƏR PALATASI - İBRAHİMXƏLİL YAZIR

Səh. 5 TEXNOLOGİYA ƏSRİNİN ƏSİRİ - VÜQAR VƏKİLOĞLU YAZIR

Səh. 6 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - AFİQ MUXTAROĞLU YAZIR

Səh. 7 “QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI” - MİRZƏ MƏMMƏDOĞLUNUN TƏRCÜMƏSİNDƏ

## BAŞ NAZİR: EPİDEMİOLOJİ VƏZİYYƏT SABİTLƏŞMƏYƏ DOĞRU GEDİR



“Gürcüstanda epidemioloji vəziyyət sabitləşməyə doğru gedir”. Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili hökumətin iclasında deyib.

İrakli Qaribaşvili vəziyyətdən əsas çıxış yolunun vaksinasiya olduğunu bildirib.

“Biz hamını peyvənd vurdurmağa çağırmalıyıq. Əsas vəzifəmiz sentyabr ayının sonuna qədər vaksinasiyadan keçən vətəndaşların sayını 2 milyon nəfərə çatdırmaqdır”, - deyə Baş nazir bildirib.

Qeyd edək ki, hazırkı dövrədək ölkədə 1184 306 nəfərə vaksin vurulub.

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ ARASINDA BİRGƏ HƏRBİ MÜƏSSİSƏLƏR YARADILA BİLƏR




Gürcüstanın Müdafiə Nazirliyinin bildirdiyinə əsasən, Gürcüstan və Türkiyə arasında birgə hərbi müəssisələrin yaradılması ilə bağlı müzakirələr aparılır.

Müəssisələrin qurumun “Delta” elmi-texniki mərkəzinin bazasında yaradılması təklif olunur. Məsələ Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzenin türkiyəli həmkarı Hulusi Akar və Türkiyənin iri hərbi sənaye şirkətlərinin rəhbərləri ilə İstanbulda baş tutan “IDEF - 2021” Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində keçirdiyi görüşlərdə müzakirə olunub.

Nazirlər ikitərəfli və üçtərəfli formatlarda əməkdaşlıq istiqamətlərini də nəzərdən keçiriblər. Tərəflər həmçinin çoxmillətli hərbi təlimlərin, beynəlxalq missiyalarda birgə faydalı iştirakın və NATO ilə əməkdaşlığın əhəmiyyəti barədə də fikir mübadiləsi aparıblar.

## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 7408 NƏFƏRƏ ÇATIB




Avqustun 31-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 7408 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 549811 nəfər, sağalanların sayı isə 493414 nəfər olaraq göstərilib. Avqustun 31-nə kimi ölkədə 1 184 306 nəfər COVID-19 əleyhinə peyvənd olunub.

Ölkə üzrə karantin rejimində 78 nəfər, stasionar nəzarətdə 7457 nəfər, COVID mehmanxanalarda olan şəxslərin sayı 2840 nəfə olaraq göstərilib.

## TAMAR QABUNİA: 12 YAŞDAN YUXARI UŞAQLARIN KORONAVİRUSA QARŞI PEYVƏNDLƏNMƏSİNƏ BAŞLANILACAQ



Gürcüstanın səhiyyə nazirinin müavini Tamar Qabunianın sözlərinə görə, yaxın zamanlarda Gürcüstanda 12 yaşdan yuxarı uşaqların koronavirusa qarşı peyvəndlənməsi prosesinə başlanılacaq.

Onun sözlərinə görə, yaşı 12-dən yuxarı olan uşaqların vaksinasiyası pandemiyanın sona çatması üçün əsas məqamdır.

“Vaksinasiya komitəsi bu məsələyə baxacaq və qərar 2-3 həftədən sonra qəbul olunacaq. Avropanın bir sıra ölkələrində belə təcrübə var, biz bunu nəzərə alacağıq”, - deyə nazir müavini bildirib.

O deyib ki, 12 yaşdan yuxarı uşaqların peyvəndlənməsi valideynlərin istəyinə əsasən aparılacaq.

Qeyd edək ki, Gürcüstanda hazırda vaksin 16 yaşdan yuxarı şəxslərə vurulur.



# MAMED VƏ QOQİ

Azər MUSAOĞLU

azermusaoghlu@gmail.com

Sizə Mamed və Qoqi haqqında, daha doğrusu, Mamedlə Qoqinin fərqindən danışmaq istəyirəm. Mamed də, Qoqi də Gürcüstanda doğulub, boya-başa çatıb, məktəbə gedib, məktəbi bitirib, ailə qurub, oğul-qız sahibi olub, asan-çətin bir tikə çörək pulu qazanıb, lazım olanda dalaşıb, barışıb, kədərlənib, sevinib, sevib-sevilib, umub-küsüb, ağlayıb-gülüb, xəstələnib-sağalıb... Bir sözlə, Mamed də, Qoqi də, demək olar ki, oxşar ortastatistik həyat yaşayıb, yaşayır və qocalır. Vaxtları çatanda Mamed də, Qoqi də bərabər yaşadıqları bu fani dünyanı, bərabərhüquqlu yaşaya bilmədikləri bu birinə ögey, digərinə doğma vətəni əbədi olaraq tərk edəcəklər. Mamedi də, Qoqini də qara paltarlı qadınlar ortaya qoyub ağlayacaqlar, günəşdən dəriləri qaralmış kişilər torpağa dəfn edib, haqqında yaxşı sözlər söyləyib, üzərindən də bər-bəzəkli bir qəbir düzəldib yavaş-yavaş unutmağa başlayacaqlar. Sanki hər ikisinə fani olan bu dünyada, birinə ögey, digərinə doğma olan bu vətəndə nə Mamed olmuşdu, nə də Qoqi.

Mamed və Qoqi fərqli dildə danışsa da, fərqli dinə inansa da "homo sapiens" deyilən iki ayaqlı, iki əlli, bir başlı, iki gözlü, iki qulaqlı, bir burunlu, bir ağızlı; yeyə, içə, yata, arta, düşünə, daşına və danışa bilən insanlardır. Yuxarıdan göründüyü kimi, hətta həyat və həyətləri də, problemləri də, qayğıları və sayğıları da oxşardır. Yedikləri oxşar, geydikləri oxşar, qarğışları, alqışları, söyüşləri, döyüşləri oxşar... Hətta ikisinə də rentgen şüasından baxsan, kompüter tomoqrafiyasından nəzər salsan, görərsən ki, skeletindən tutmuş ürək, böyrəklər, ağ ciyərlər, qara ciyər, dalaq, mədə, beyin, sidik kisəsi, öd kisəsi, mədəaltı vəzi və kor bağırsağa kimi eynidir, oxşardır. Fərqli olsa-olsa qanlarının qrupu və rezusu fərqli olacaq ki, bu da, təkcə Mamedlə Qoqi arasındakı fərq deyil, həm də Mamedlə Mamed və Qoqiylə Qoqi arasındakı fərqdir eyni zamanda.

Yuxarıda qeyd etdiyimiz dil və din fərqinə gəldikdə isə, bunu da böyük fərq hesab etmək olmaz, məncə. Çünki Mamed istəsə Qoqinin dilini öyrənər, Qoqi də istəsə Mamedin dilini öyrənər; həmçinin, Mamed istəsə Qoqinin dininə inanar, Qoqi də istəsə Mamedin dininə.

Burada dayanıb dərinə getmirəm, dərinə getsək Mamedlə Qoqinin heç bir fərqi olmadığına, hətta eyni insan olduqlarına, ikisinin də Adəm və Həvvanın balaları olduğuna qədər gedib çıxacağıq. Bu da ki, bu yazı üçün əl vermir. Düzünü deyim, mənə Mamedlə Qoqinin arasında olan daha çox fərq lazımdır ki, bu yazını bitirə bilim. Fərqi isə itinə tök, pişiyinə dağıt. Başlayaq elə ən bəsitindən.

Bu zəhrimara qalmış koronavirus təzəcə səngiməyə başlamışdır ki, məhdudiyyətlər götürüləndən sonra pusquda duran it kimi yenə düşdü camaatın canına. Maska taxmağı, axşam saat 9-dan evlərinə yığılmağı zorla vərdiş etmiş insanlara bir neçə aylığına vərdişlərini tərgidib sonra yenidən tələb etmək Mamedə də, Qoqiya da eyni cür təsir eləsə də, Mamedlə Qoqinin fərqi məhz burada özünü biruzə verdi.

Məsələn, hər yerdə maska taxmaq qaydası yenidən tətbiq olunanda Qoqi həmin gündən maska taxmağa başladı. Mamed isə ilk gündən qarınağrısı ilə maska taxdığı kimi, yenə də əzilib-büzülməyə başladı, maskanı gah çənəsinə, gah dodaqlarına, gah da biləyinə taxdı. Qoqi koronavirusun simptomlarını özündə hiss edəndə getdi test verdi, Mamed ağsıraraq və öskürərək çayxanaya getdi, mağazaya girdi, toya-yasa yollandı. Qoqinin koronavirusa yoluxduğu təstiqlənəndə qaxılıb evində oturdu, həkim məsləhəti aldı, müalicəyə başladı, xəstəxanada yatdı. Mamed koronaviruslu halda gəzməyindən, alverindən, öpüşüb-görüşməyindən qalmadı. Qəlbinin dərinliyində koronavirusa yoluxduğuna inansa da hamıdan gizlətdi, adını "soyuqdəymə", "eşşək qripi" və s. qoydu. Beləliklə də nəslin yarısını virusa yoluxdurdu. Qoqi avtobusa, "marşrutkaya" maskalı mindi, Mamed biləyindəki maskanı ağzına taxmayaraq sürücüylə mübahisə etdi, dalaşdı. Qoqi viruslu halda xəstəxanaya girməmişdən öncə əvvəlcə qapının ağzında koronavirus olduğunu xəbər etdi, sonra xüsusi qayda ilə xəstəxanaya girdi (dəfələrlə şahidi olmuşam), Mamed isə nəinki virusa yoluxduğunu xəbər etdi, növbəyə duran sıranı belə eyninə almadan qapını açıb içəri soxuldu, həkimlərin hamısı ilə təmasda olduqdan sonra analizlərin nəticəsindən bilindi ki, koronavirusa yoluxubmuş.

Mən demirəm Qoqinin bütün qohumları onun kimidir və ya Mamedin bütün qohumları özünə oxşayır... Əsla! Söhbəti ümumiləşdirməyin! Mən faiz baxımından daha çox gördüklərimi deyirəm. Məsələn, Qoqinin də elə qohumları var ki, Mamed kimi koronavirusun "oyun" olduğunu deyir. Buna baxmayaraq, Mameddən fərqli olaraq bu "oyunda" oynamağa başlayır, ən azından "oyunun" qaydalarına əməl edir (maska taxır, məsafə saxlayır, əllərini spirtləyir, insan sıxlığı olan yerlərə getmir və s.), ofsaydda qalmır Mamed kimi. Mamedin də koronavirusa inanan və özünü qoruyan, tövsiyələrə əməl edən qohumları var, Qoqidən fərqli olaraq Mamed həmin qohumlarına gülür, lağa qoyur.

Mən hələ Mamedlə Qoqinin koronavirus əleyhinə peyvəndə olan münasibətlərindəki fərqdən yazmıram, qalsın gələn dəfəyə, yoxsa Mamedin vaksin haqqındakı konspirologiyasını bura köçürsəm səkkiz səhifə bəs eləməz.

Qoqi də, Mamed də hər ikisinə fani olan bu qoca dünyada, birinə ana, digərinə ögey ana olan bu vətəndə xırda bildiyimiz, əslində isə böyük olan bu fərqlərlə yaşayıb ömürlərini başa vuracaqlar. Koronavirus isə Mamedlə Qoqi arasında heç bir fərq qoymur, hansı özünü qorumur, hansı məsuliyyətsizlik edir, hansı virusa inanmayaraq qaydalara, tövsiyələrə əməl etmir elə onun da boğazından yapışır.

## BAŞ NAZİR: GÜRCÜSTAN ƏFQANISTANDAN TƏXLİYƏ OLUNANLARI QƏBUL EDƏCƏK



Gürcüstan Əfqanıstandan təcili humanitar təxliyə prosesinə qoşulub. Bu barədə Baş nazir İrakli Qaribaşvili məlumat verib. Onun sözlərinə görə, ölkədə bu məqsədlə regional tranzit hab yaradılıb.

"Mərkəz Tbilisi beynəlxalq hava limanı və aeroport yaxınlığındakı hərbi bazada təşkil olunub. Gürcüstan Əfqanıstanda olan beynəlxalq təşkilatların missiyalarının təxliyə olunan əməkdaşları, onların ailə üzvlərini qəbul edəcək və onları müvəqqəti yerləşdirəcək", - deyə Baş nazir bildirib.

İ.Qaribaşvili vurğulayıb ki, Gürcüstan bu qərarı ilə beynəlxalq ictimaiyyətin etibarlı tərəfdaşı olduğunu nümayiş etdirib.

Gürcüstan hökumətindən bildirilib ki, prosesin həyata keçirilməsi zamanı koronavirusla bağlı təhlükəsizlik qaydaları nəzərə alınır, tələb olunan xərcləri isə müvafiq beynəlxalq təşkilatlar qarşılayır.

## GÜRCÜSTANDA SƏHRA HOSPİTALLARI YARADILIB



Tbilisinin Diğomi rayonunda 500 çarpayılıq səhra hospitalı yaradılıb. Avqustun 19-dan hospitala xəstələrin qəbulu başlayıb. Bu haqda ölkənin səhiyyə nazirinin müavini Tamar Qabunia jurnalistlərə məlumat verib.

"Səhra hospitalı əsasən pasiyentlərin müvəqqəti müalicəsi üçün nəzərdə tutulub. Məqsəd pasiyentin vəziyyətini zamanında sabitləşdirəndən sonra xəstəxanaya yönəltməkdir",- T.Qabunia deyib.

Nazir müavini bu gün Gürcüstanın xəstəxana sektorunun maksimal səviyyədə yükləndiyini bildirib.

Qeyd edək ki, Tbilisidə iki səhra hospitalı yaradılıb. Şəhərin Samqori rayonundakı digər hospital da pasiyentlərin qəbuluna hazırdır. Acarıstan və İmereti bölgələrində də bu cür hospitalların açılması planlaşdırılır.

## KAFE VƏ RESTORANLAR SAAT 22:00-A KİMİ İŞLƏYƏCƏKLƏR



Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, avqustun 25-dən etibarən ölkədə kafe və restoranlar saat 23:00 əvəzinə saat 22:00-da bağlanmalıdır.

Bununla yanaşı, qida obyektlərində pandemiya dövrünün tələblərinə əməl olunmasına ciddi nəzarət davam etdirilir.

Digər qərarla sentyabrın 2-də Batumidə futbol üzrə dünya çempionatının seçim mərhələsi çərçivəsində keçiriləcək Gürcüstan-Kosovo matçına tamaşaçılar buraxılmayacaq.

# İSLAMIN CƏMİYYƏT HƏYATINA QAZANDIRDIĞI DƏYƏRLƏR



Həzrət Peyğəmbərin peyğəmbərliyi kainatın ən əhəmiyyətli hadisəsi və onun gətirdiyi İslam dini ilə yaşanan dəyişmə insanlıq tarixinin ən böyük inqilabıdır. Onun peyğəmbərliyi ilə gərək ürək və könüllərdə, gərəksə fərdi və ictimai həyatda meydana gələn gözəl inkişaflar saymaqla bitməz. Onun sayəsində zülm və cəhalətin hakim olduğu qaranlıq çağlar elm və ədalətin hakim olduğu səadət əsrinə döndü. Dünyanın ən bədəvi və ən pis qövmləri dünyanın ən fəzilətli cəmiyyətləri halına gəldi. Mədəniyyətdə bütün insanlığa ustad və rəhbər oldular. Otuz il kimi qısa bir zamanda bütün böyük dövlətlərə və millətlərə qələbə çaldılar. Dünyanın ən parlaq mədəniyyətini qurdular.

Qüvvətdən başqa dəyər tanınmayan, güclü olanın hər cür haqqa sahib olduğu, döyüş və zülmlərin bütün dünyanı əhatə etdiyi, qan və gözyaşının hakim olduğu çağımızda barış, hüzur, güvən və ədalətin təsisi üçün insanlıq Hz. Məhəmməd (s.ə.s)-in gətirdiyi iman və İslamiyyət nuruna və Quran həqiqətlərinə hər zamankından daha çox möhtacdır.

Onun fərdi və ictimai həyata qazandırdığı gözəllikləri, əlbəttə, saymaqla bitirə bilmərik. Ancaq insanlığın Hz. Peyğəmbərə olan vəfa borcunu ifadə qabilində ictimai həyata qazandırdığı bəzi dəyərlərdən qısaca bəhs etmək istəyirik:

**1. İnsanlar arasına bərabərlik gətirdi:**

Hz. Peyğəmbərin risalətindən əvvəl yer üzündə insanlar arasında bərabərlik yox idi. Bərabərlik anlayışı bilinmir, tələffüz belə edilmirdi.

Yəhudilər özlərini üstün millət və Allahın oğulları, başqa millətləri isə yəhudilərə xidmət etmək üçün yaradılmış qulluqçular olaraq qəbul edirdilər. Xristianlıqda isə ruhanilər sinfi meydana çıxmış, bir havas/üst təbəqə dini halına gəlmiş, ictimai siniflər arasındakı sosioekonomik və hüquqi fərqliliklər, uçurumlar olduqca böyümüşdür. Uzaq şərq ölkələrində isə "qəsd" sistemi vardı. Yəni uşaq daha doğuşdan müəyyən bir ictimai sinifdə dünyaya gəlir və ölənə qədər mənsubu olduğu ictimai sinfin üzərindəki bir sinfə yüksələ bilməzdi.

Rəsulu Əkrəm (s.ə.s) bütün insanların bərabər olduğunu, Allah qatında qulluq cəhətiylə kölə ilə padşah arasında bir fərq olmadığını, yaradılışdan heç kimin üstün və ya aşağı olmadığını, bütün insanların İslam fitrəti üzərinə yaradıldığını, hüquq qarşısında hər kəsin bərabər olduğunu… "üstünlüyün ancaq təqva, yəni Allahın əmrlərini/fərzləri yerinə gətirmə və qadağanlardan/günahlardan qaçınma" ilə olacağını elan etmişdir.

Bu insanlıq tarixinin ən böyük qazancından biridir.

**2. Sosial həyatdakı əlaqələrdə təyinedici faktor "Qüvvət" yerinə "Haqq" oldu:**

Hz. Peyğəmbərin risalətindən əvvəl ictimai həyatda təyinedici faktor qüvvət idi. Qüvvətli olan sahib olduğu gücə güvənərək istədiyini edir, özündən daha zəif olanların canını, malını, namusunu digər haqlarını zorla qəsb edə bilirdi. Lakin Hz. Məhəmməd (s.ə.s)-in gəlişindən sonra zülmlərə, haqsızlıqlara və zorbalıqlara son verildi. İctimai həyatda insanlar və qruplar arasındakı əlaqələrdə təsirli və təyinedici faktor qüvvət yerinə "haqq" oldu. Hz. Peyğəmbərin gətirmiş olduğu həyat anlayışı və hüquq sistemində haqqın qorunması, haqqın haqq sahibinə təslim edilməsi və haqlının hüququnun qorunaraq güclü qılınması əsası gətirilmişdir. Ayrıca "qul haqqı", "qonşu haqqı", "dul və yetim haqqı" kimi digər insanları maraqlandıran haqlar, mütləq qorunması lazım olan, əks halda mənəvi məsuliyyəti çox olan haqlar olaraq öyrədilmiş, hər vəsilə ilə başqa insanların hüququna hörmət göstərilməsi dərsi verilmişdir.

**3. Mənfəətə dayanan əlaqələr yerinə Allahın razılığını qazana bilmə məqsədinə istiqamətli fəzilət duyğuları mənimsəndi:**

Hz. Peyğəmbər (s.ə.s)-dən əvvəl insanların həyatda ən çox istədikləri mal, mülk, pul, sərvət, güc, etibar, şan, şöhrət, mövqe sahibi olmaq idi. Onun üçün özlərinə zənginlik və etibar qazandıracaq hər yolu mübah görürdülər. İnsanların ən böyük arzusu mövcud dünya süfrəsindən daha çox pay götürə bilmək idi. Daha çox mənfəət əldə edə bilmək arzusu isə bitmək bilməyən döyüşlərə, mübarizələrə, təcavüz və zorbalıqlara gətirib çıxarırdı.

Hz. Peyğəmbərin gətirdiyi inancın ən böyük məqsədi Allahın razılığını qazana bilmək arzusu oldu. Onun üçün insanlar Cənabı Haqqın razılığını qazana biləcəkləri gözəl işlər etməyə, Allahın məmnun olmayacağı işlərdən qaçınmağa çalışdılar.

**4. "Həyat mübarizədir" zehniyyətinin yerinə "həyat köməkləşməkdir" anlayışı gətirildi:**

İslamiyyətdən əvvəl insanlar həyatın mərhəmətsiz olduğunu və davamlı mübarizələrdən meydana gəldiyini sanırdılar. Böyük balıq kiçik balığı udar, qüvvətli olan zəif olana hökm edər və əlində olanları qəsb edər, onun üçün mütləq güclü olacaqsan və əzilməyib əzəcəksən deyilirdi.

Rəsulu Əkrəmin gəlişiylə həyatın mahiyyəti dəyişdi. Kainatda yardımlaşma və həmrəylik adlanan ilahi bir nizamın var olduğu aydın oldu. Xüsusilə insan üçün saysız nemətlərin verildiyi kainatdakı hər şeyin insanın istifadəsinə təqdim edildiyi və insanın kömək və imdadına göndərildiyi fərq edildi.

**5. Sosial həyatda cəmiyyəti bir-birinə bağlayan ictimai bağlar olaraq qəbiləçilik və irqçilik yerinə vətən sevgisi və din qardaşlığı gətirildi:**

Hz. Peyğəmbərin gəlişindən əvvəl insanlar arasında ictimai bağ olaraq qəbiləçilik və irqçilik əsas alınırdı. Hz. Peyğəmbərin gəlişindən sonra bu anlayış qəti bir şəkildə qadağan olundu. Heç bir millətin başqa bir millətdən üstün olmadığı, üstünlüyün ancaq Allahın əmrlərini yerinə yetirmə və qadağan etdiyi şeylərdən qaçınma ilə əldə ediləbiləcəyi və bütün inananların qardaş olduğu elan edildi.

**6. Sosial həyatı korlayan və hüzuru pozan pis vərdişlər yox edilərək cəmiyyətə hüzur, dinclik və güvən təmin edən gözəl əxlaq yayıldı.**

**7. Kizb (Yalan) tərk edildi, yerinə sədaqət (düzgünlük) gəldi:**

İnsanlar hər vəsilə ilə yalan danışmaqdan və başqalarını aldatmaqdan çəkinmir. Hz. Peyğəmbərin risalətindən sonra "kizb", yəni yalanın hər cürü ağır şəkildə qadağan edildi. Yalanın azalması və sədaqətin artması bir çox ictimai çətinliyi və xəstəlikləri müalicə etdi. İctimai həyatda hüzur və güvən çoxaldı.

**8. Hüquq dövləti sistemi gətirildi:**

Cahiliyyə dövründə ölkələr diktatorlar tərəfindən idarə olunur və qüvvətdən başqa nüfuz tanınmazdı. Hz. Peyğəmbərin gəlişindən sonra Quran və sünnə hökmləri hər kəs üçün bağlayıcı və etibarlı oldu. Əfəndi ilə kölə, zəngin ilə kasıb, qadın, kişi, gənc, qoca, zənci və ya ağ… hər kəs eyni hökmlərə/qaydalara tabe oldu. Və qaydaları pozan kim olursa olsun eyni hökmlə qarşılaşdı. Yəni hər kəs hüquqa uyğun davranmaqla öhdəçilikli tutuldu.

**Hacı BƏKİROĞLU**

# SENTYABRIN 15-İ DƏRSLƏR DİSTANT QAYDADA BAŞLAYACAQ

Dövlət Qurumlararası Koordinasiya Şurasının qərarına əsasən, təhsil prosesi 15 sentyabrdan 4 sentyabra qədər distant rejimdə bərpa olunacaq. Oxşar tənzimləmələr ali təhsil müəssisələrinə də aiddir. Uşaq bağçalarının fəaliyyəti isə 4 oktyabr tarixinə qədər məhdudlaşdırılacaq.

Təhsil naziri Mixeil Çxenkeli həmçinin qeyd edib ki, şagird və valideynlər 4 oktyabrdan sonra dərslərin distant və ya sinif otaqlarında keçirilməsi ilə bağlı seçim edə biləcəklər.

"Dövlət, eləcə də özəl bağçalar 4 oktyabra qədər işləməyəcək və 4 oktyabrda, əlbəttə, bu məsələyə qayıdacağıq. Məktəblər, peşə kollecləri və ali təhsil müəssisələri 4 oktyabra qədər distant rejimdə fəaliyyət göstərəcək.

Qeyd edildiyi kimi, 15 sentyabrda məktəblərdə təhsil prosesi başlayacaq. Rübə distant rejimdə başlayacağıq və bu 4 oktyabra qədər belə olacaq.

4 oktyabrda nə baş verəcək və hansı meyarlardan istifadə edəcəyik? Yoluxma göstəricisi 4 %-dən aşağı olan şəhərdə, kənddə təhsil sinif otaqlarında, yəni auditoriyalarda əyani şəkildə bərpa olunacaq. 4 %-dən yüksək yoluxma halı qeydə alınan şəhər və kəndlərdə isə təhsil prosesi distant qaydada davam etdiriləcək.

Bildiyiniz kimi, hazırda Gürcüstanda koronavirusun müxtəlif ştammları arasında "delta" ştammı 90 % təşkil edir və təəssüf ki, bu ştamm xüsusilə uşaqlarda və gənclərdə çox qeydə alınır. Uşaqların, bizim övladlarımızın sağlamlığı ən üstün prioritetdir və Dövlət Qurumlararası Koordinasiya Şurası Xəstəliklərə Nəzarət Milli Mərkəzinin tövsiyələri əsasında bu qərarı qəbul edib", - deyə Mixeil Çxenkeli bildirib.

*Mənbə: etaloni.ge*



# 60 KREDİTLİK PROQRAMI KEÇƏNLƏR MƏKTƏBƏ BAŞ MÜƏLLİM STATUSU İLƏ DAXİL OLACAQLAR



Müəllimlər imtahanının nəticələri mərhələ ilə yayımlanır. Diplomunda "müəllim" yazılmayan, ancaq müəllim olmaq istəyənlər imtahanı uğurla verdikdən sonra istənilən universitetdə 60 kreditlik proqram keçməlidirlər.

Müəllim hazırlığı təhsil proqramını keçmək istəyən şəxslərə məsləhət görürük ki, istədikləri universitetin veb-səhifəsini izləsinlər, çünki sənədlərin qəbulu bir neçə gün ərzində davam edəcək və vaxt itirdikləri halda müsabiqədən kənar qalacaqlar.

**60 kreditlik proqram nə deməkdir və bu proqramı keçmiş şəxsə hansı üstünlük verilir?**

Müəllim hazırlığı təhsil proqramı "axtaran" müəllimlərin baş müəllim statusu qazanması üçün vasitədir. Həmçinin fənn imtahanını uğurla verən, müəllim olmaq istəyənlər də proqramı keçə bilər.

60 kreditlik proqramı keçmiş müəllim olmaq istəyən şəxs məktəbə baş müəllim statusu ilə girəcək.

Müəllimlərin hazırlıq proqramına qəbul olmaq üçün lazımdır:

- Fənn imtahanını uğurla vermək;
- Ali təhsil müəssisəsi tərəfindən təyin edilmiş imtahanı vermək.

**Universitetə təqdim etmək üçün hansı sənədlər lazımdır?**

a) Ərizə (yerində doldurulur);

b) Tərcümeyi-hal (CV) gürcü dilində;

c) Şəxsiyyət vəsiqəsi və onun surəti;

ç) Fənn imtahanını verdiyi ilə əlaqədar imtahana qeydiyyat nömrəsi, toplanmış və minimum keçid balının qeyd olunduğu arayış. Müəllim sertifikatı olduğu halda, notarial qayda ilə təsdiqlənmiş müəllim sertifikatının surəti;

d) İki ədəd fotoşəkil və fotoşəkilin elektron versiyası (CD);

e) Bakalavr, yaxud ona bərabər qüvvəsi olan sənəd, diplomun notarial qayda ilə təsdiqlənmiş surəti, yaxud müvafiq ali təhsil müəssisəsi tərəfindən müvafiq dərəcənin verilməsi barədə arayış. Arayışda kvalifikasiyanın verilməsi barədə qərarın nömrəsi və tarixi qeyd olunmalıdır. Xaricdə ali təhsil alındığı halda Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz tərəfindən verilmiş təhsilin tanınması sənədi;

ə) Hərbi xidmətdə olduğunu təsdiqləyən sənəd (yalnız oğlanlar üçün).

*Qeyd: sənədlərin etibar edildiyi şəxs tərəfindən təqdim olunması halında həmin şəxs notariusla təsdiqlənmiş etibarnamə təqdim etməlidir.*

**Proqramda təhsil almaq pulludur ya pulsuz?**

Müəllimlərin hazırlıq proqramında təhsil almaq dövlət tərəfindən maliyyələşdirilir. Ancaq son illər ərzində müsabiqə böyükdür. İstəyi olanların bir qismi isə maliyyələşdirmədən kənar qalır. Universitetlərin bir qismi proqramı keçmək istəyənlərə pullu təhsil də təklif edir. Tam qiymət isə 2250 laridir.

**Universitetlərdə daxili imtahanlar necə keçirilir?**

Universitetlər qəbul üçün esse, müsahibə kimi müxtəlif növ daxili imtahanlar təklif edir. Ola bilsin universitet daxili müsabiqə üçün esse yazmağı və müsahibəni – hər ikisini vacib hesab etsin.

**60 kreditlik proqramda nə öyrədilir?**

Proqramda fənnin tədris metodları və pedaqogika öyrədilir.

**Distant təhsil mümkündürmü?**

Yaranmış pandemiya şəraitindən irəli gələrək təhsil distant qaydada aparılırdı. Ancaq qeyd olunan məsələ ilə bağlı universitet özü qərar verir.

**Dərs vaxtını seçmək mümkündürmü?**

Bu proqramda təhsil almaq istəyənlərə əsasən universitetlər dəstək olur. Dərslərin vaxtı bütün universitetlərdə müxtəlifdir – bəzisində səhər, bəzisində axşam keçirilir. Buradan irəli gələrək, təhsilə başlamamış bu məsələni universitet rəhbərliyi ilə aydınlaşdırın.

**Hansı universitetlərdə bu proqrama qəbul var?**

Müqəddəs Andria adına Gürcü Universiteti, Avropa Universiteti, İlia Dövlət Universiteti, İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti, Suxumi Dövlət Universiteti, Tbilisi Vano Saracişvili adına Dövlət Konservatoriyası, Samtsxe-Cavaxeti Dövlət Universiteti, Şota Mesxia adına Zuqdidi Dövlət Tədris Universiteti, Akaki Tsereteli adına Dövlət Universiteti, İakob Qoqebaşvili adına Telavi Dövlət Universiteti, Batumi Şota Rustaveli adına Dövlət Universiteti, Batumi İncəsənət Tədris Universiteti, Qori Dövlət Tədris Universiteti, Gürcüstan Patriarxlığının Müqəddəs Tbel Abuseridze adına Tədris Universiteti, Gürcüstan Universiteti, Beynəlxalq Qara Dəniz Universiteti, Şərqi Avropa Universiteti, Gürcüstan Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Tədris Universiteti.

# İMTAHANLARDAN SONRA MÜƏLLİMLƏRİN SAYI 17 192 NƏFƏR AZALIB

Son10 ildə məktəblərdə müəllimlərin sayı 17 192 nəfər azalıb. Bildiyimiz kimi, müəllim peşəsində çox yeniliklər həyata keçirildi. İmtahanlar keçirilir və müəllimin fənn biliyi, bacarıqları yoxlanılır. İlk əvvəl imtahanı keçmək üçün hədd hamı üçün eyni – 60 % +1 bal idi. Ancaq kredit toplamağın tətbiq edilməsi müəllimlər üçün imtahanda qazanılmış müxtəlif nəticələrin də qəbul edilməsinə səbəb oldu.

Müəllim ixtisasını təsdiq edən imtahanlar ilk dəfə 2010-cu ildə keçirildi. Müəllimlərin bir qismi imtahanda iştirak etməkdən imtina edərək məktəbi tərk etdilər, birq qismi isə imtahandan kəsildikdən sonra müəllim peşəsindən imtina etdi.

Statistikaya görə, 2009-2010-cu tədris ilində məktəblərdə 79 891 müəllim işləyirdi. Buradan 68 587-si qadın, 11 304-ü isə kişi idi. Müəllimlər imtahanı başlayan kimi say ciddi şəkildə azaldı. 2010-2011-ci tədris ili başlayanda məktəblərdə 63 512 müəllim var idi. Yəni əvvəlki ilə nisbətən 16 379 qədər azdır. 16 000-dən çox müəllim peşəsindən uzaqlaşıb.

İlk əvvəl müəllim kompetensiyasını təsdiqləmək üçün imtahan testləri elə tərtib edilmişdir ki, müəllimin fənlə yanaşı metodik biliyi də yoxlanılırdı, yəni müəllimlər fənni tədris etmək bacarığına nə dərəcədə malikdirlər. Peşə qabiliyyəti imtahanı isə müəllimlərdən peşəkar və dərin bilik tələb edirdi. Testlər tanınmış psixoloqların nəzəriyyəsinə əsasən tərtib edilmişdi. Müəllimdən şagirdin yaşına əsasən inkişaf etməsi üçün lazımi bilik və yanaşmalara malik olduğunu təsdiqləməsi tələb olunurdu.

Zaman ərzində imtahan testləri dəyişdirildi və *"Bu gün pedaqoqlar çox asan testlər verirlər. Bu nağıldır və bu testi yaxşı akademik iştirakı olan şagird də verə bilər"* – 2014-cü ilə qədər fənn və peşə bacarıqları imtahanını vermiş müəllimlər testi belə qiymətləndirdilər.

2020-2021-ci tədris ilinin başlanğıcında ictimai və özəl məktəblərdə 62 699 müəllim işləyirdi. Bunlardan 54 685-i qadın, 8 014-ü isə kişidir. 62 699 nəfərdən 55 491-i ictimai, 7 208-i isə özəl məktəb müəllimidir.

2009-2010-cu tədris ilində imtahanlar tətbiq olunana qədər məktəblərdə 79 891 müəllim var idi. Bu gün həmin rəqəm 17 192 qədər azdır. Qeyd etmək lazımdır ki, 2019-2020-ci tədris ilində pul mükafatı əvəzində 8000-dən artıq müəllim məktəbdən getdi. Onları yeni kadrlar əvəz edib və pedaqoqların ümumi sayı mühüm dərəcədə azalıb. 2019-2020-ci ildə məktəbdə 63 780 müəllim işləyirdi, bu gün isə həmin rəqəm 62 699-dur.

# DAĞLIQ ƏRAZİLƏRDƏ MÜƏLLİMLƏR 1980 LARİ ƏMƏKHAQQI ALIRLAR

Bugünkü göstəricilərə görə, Gürcüstanda dağ statusu daşıyan 1800-ə yaxın məntəqə var. Dağlıq regionlarda daimi yaşayan sakinlərin sayı isə 256 500 nəfərə yaxındır. Həmin regionların ictimai məktəblərində müəllim çatışmamazlığı və ixtisaslı kadr problemi qalmaqdadır.

Müəllim çatışmamazlığı dağlıq regionlarda, eləcə də Gürcüstanın digər guşələrində mövcuddur. Etnik azlıqların məskunlaşdığı kəndlərdə də müəllim çatışmamazlığı var. Elə hallar var ki, məktəbin milli tədris planı ilə nəzərdə tutulmuş fənn müəllimi yoxdur və fənni həmin məktəbin yuxarı sinif şagirdi tədris edir. Belə vəziyyət, təbii ki, şagirdlər üçün keyfiyyətli təhsilin bərabər əlçatanlığını təmin etmir.

Mövcud vəziyyətə görə, "Gürcüstan üçün öyrət" layihəsi həyata keçirildi. Layihə çərçivəsində müəllimlərin dağlıq regionlara çağırılması prosesi davam etdirilir. Proqram çərçivəsində məsləhətçi-müəllimlər məktəblərdə ən azı bir il müddətinə işlə təmin olunur və bu dövr ərzində təhsil-tədris prosesinin yaxşılaşdırılmasının qayğısına qalırlar.

Dağda yaşayan vətəndaşlar müxtəlif sosial, yaxud vergi güzəştlərindən yararlanırlar. Dağlıq ərazidə ictimai məktəblərdə işləyən müəllimlər əməkhaqlarının ən azı 35 %-i qədər əlavə alırlar. "Gürcüstan üçün öyrət" proqramına qoşulmuş müəllimlər isə 50 %-lik əlavə alırlar.



Hər il 10 mindən çox müəllimə əməkhaqqının ən azı 35 %-i dəyərində əlavə veriləcək. Ümumilikdə isə 62 milyon laridən artıq pul verilib.

*Dağlıq ərazilərdə müəllimlərin əməkhaqqı isə bu cürdür:*

• 2020-ci ildə – 800-dən 1880 lariyə qədər;

• 2021-ci ildə – 865 laridən 1980 lariyə qədər.

---

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*

**Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA**

# SAXTA PROFİLLƏR PALATASI



İnsanlar dağlardan, ağaclardan, çaylardan, torpaqdan, səmadan dolayı, arada-sırada nitq hissələrinə də bənzəyirlər. Bəziləri əsas nitq hissələri misilli, həm leksik, həm də qrammatik mənaya sahib olurlar. Bəziləri isə köməkçi nitq hissələri kimi, sadəcə olaraq qrammatik məna daşıya bilirlər.

Bunu elə-belə, söz gəldi-gəlmədi deyirəm. Yəni saxta profillər eşitməyə də bilərlər.

...Profil – üzün və ya əşyanın yandan görünüşünə deyilsə də, saxta profilləri nə yandan görmək olur, nə də anfas-profil şəklində: yəni üzü obyektivə, tamaşaçıya tərəf.

Bəs saxta profil sosial şəbəkədə üzünü niyə gizlədir, adını niyə gizli saxlayır?

Onlar niyə bu qədər söyüş kampaniyası, vurhəşir, qovğa, qalmaqal, cəncəl, dava tərəfdarıdırlar?

Və saxta feysbuk hesablarındakı təhqirlər, təhdidlər, böhtanlar niyə şəxslərin-şəxsiyyətlərin şərəf və ləyaqətlərini qəsdən alçaltmağı nəzərdə tutur? Əgər bu sosial media deyilən doğrudan da mediadırsa, niyə burada bir bu qədər boşboğaz, bu qədər trol "fabriklər"i var?

İndi bu qədər sualın tək birinə cavab verməyə, özü də Süsən-Sünbül səviyyəsində cavab verməyə çalışacağam. Cəhd – cəncəllik, cəngəllik deyil ki?

Süsən-Sünbül tərəflərdən görünən budur ki, saxta profillər, hər şeydən öncə, özlərinin palatasını yaratmaq istəyirlər. Amma bu ***palata*** nə Hesablama Palatası, nə Lordlar Palatası, nə Kitab, nə də Ticarət Palatasıdır! Həmçinin də qanunvericilik orqanı-instansiyası olaraq nə Aşağı, nə də Yuxarı Palatadır!

Bu, bəlkə daha çox xəstəxanalarda və digər müalicə müəssisələrində xəstələr üçün nəzərdə tutulan otaqlara, yəni palatalara oxşaya bilər. Amma nəzərə alsaq ki, bu latın əsilli "palata" ("palatium") sözü vaxtında həm də ***saray, imarət, qəsr*** anlamlarını da verib, onda bəzi iddialar ortaya çıxa bilər ki, bəs deməzsənmi, saxta profillər – ***bizi palatadan keçirmək şərti ilə*** – Saray həsrəti ilə də yaşaya bilərlər! Baxmayaraq ki, onlar "Saraylar"ı guya topa-tüfəngə tuturlar, amma söhbət onların "ədalətli" Sarayından, Qəsrindən, mütləq ***palatadan keçən*** Sarayından, Qəsrindən gedəndə onların məxsusi fərqli modallığı-münasibəti ortaya çıxır.

...Heç yadımdan çıxmır. Məni xəstəxananın 21-ci palatasına yerləşdirmişdilər. Düz dəhlizin bəri başında idi. Yenicə dincəlməyə hazırlaşırdım ki, dəhlizin o biri başında düşən vurhaşirə görə çıxmalı oldum. Yeni gələn xəstəyə 6-cı palata düşmüşdü. Adam heç cür içəri girib yerləşmək istəmirdi. Belə məlum oldu ki, bura göz xəstəxanası olsa da, adam hələ də A.P.Çexovun "6 nömrəli palata" povestinin cazibəsindən çıxa bilmir. Oxuyanlar bilir ki, "6 nömrəli palata"-da ruhi xəstələr üçün nəzərdə tutulmuş palatadan söhbət açılır. İnsan şəxsiyyəti üzərində zorakılıq, haqsızlıqlar, fərdlərin ədalət uğrunda mübarizəsi, dərin fəlsəfi düşüncəli bir ziyalının ruhi xəstələr xəstəxanasına düşməsi, bəzi personajlarda daxili mənəvi aləm yoxluğu, bəzilərinin isə öz mənəvi dünyalarını zənginləşdirmək istəkləri – bütün bunlar hamısı "6 nömrəli palata"nın məzmunundan doğanlardır.

"6 nömrəli palata"nı ilk dəfə mərhum İsgəndər Nəfisinin tərcüməsində oxumuşdum. Sonra orijinalda, bu yaxınlarda isə qələm qardaşım Zahid Sarıtorpağın tərcüməsində oxudum. İlahi, "6 nömrəli palata"nın bəzi personajları ilə bugünkü saxta profillər bir-birlərinə necə bənzəyirmiş! Onda əslində ruhi xəstə olmayanları xəstə eləyənlərlə indiki özləri profilaktoriyə göndəriləsi simasız saxta profillər "qan" qohumu imiş! Təkcə başımızı deyil, ruhumuzu da cəllad kötüyündə görmək istəyən sallaqlar!

Bu yaxınlarda məşhurlarımızın adından saxta profil yaradan birinə, konkret olaraq, unudulmaz şairimiz Sərdar Əsədin adından saxta profil yaradan əcinnəyə yazdım ki, bəlkə sənin də öz sözlüyün, öz kitabın var. Öz kitabını, öz sözlüyünü yaşasana! Niyə kiminsə fikrinə, düşüncəsinə təsir eləməklə onu dəyişdirməyə çalışırsan? Allahdan, vicdanın ölməz səsindən, ölkənin Cinayət Məcəlləsindən qorxun yoxdurmu heç!? Əsl Sərdar Əsədi sənin ovaxtkı qohumların intihara sürükləmədimi? Sərdar Əsəd demiş:

*Qərib durnalar uçur*
*Gündoğandan – günbatana.*
*Çağır, anam, hey çağır;*
*Gündoğandan – günbatana...*

Ay zalım, heç durna qatarında uçmadınmı, heç ötən günlərin durna qatarı olub qayıtmadımı!.. Heç ananın "can!" deməyinə kövrəlmədinmi?

P.S.
Buralardan saxta profilləri həvəslə paylaşanlara səslənirəm:

İçinizdəki ən böyük hakimin adı Vicdan idi. Siz onu niyə belə öldürdünüz?..

**İBRAHİMXƏLİL**

# TEXNOLOGİYA ƏSRİNİN ƏSİRİ

Neçə illər bundan əvvəl hər şey fərqli idi. Gündüzlər elektrik enerjisi verilməzdi, işıqlar axşam olduqda yanardı. 90-cı, 2000-ci illərin uşaqları olaraq işıqların yanmağını səbirsizliklə gözləyərdik, işıqlar yandıqda isə sevincimizin həddi-hüdudu olmazdı. O vaxtlar çoxlarının evində televizor yox idi. Yaxşı xatırlayıram, evimizdə televizor olmadığı üçün anam həmişə kitab oxuyardı. Dayımın o qədər də böyük olmayan kitabxanası var idi. Anam həmişə kitab oxuduğu üçün məndə də kitab oxumağa həvəs yaranmışdı (Kitabı həmişə dayımın kitabxanasından götürərdik). Bununla birlikdə, o vaxtlar indi istifadə etdiyimiz telefonlar da yox idi, kasetlə işləyən maqnitofonlar var idi. İndi olduğu kimi istədiyimiz musiqiyə istədiyimiz vaxt əlimiz çatmazdı, yəni o vaxt "Youtube" və bunun kimi internet saytlarından heç xəbərimiz yox idi. Amma bir şey var ki, o vaxtlar əlimizdə olan imkanlarla xoşbəxt idik.

İndi sizləri daha əvvəllərə, çox-çox əvvəllərə aparım. Vaxt var idi elektrik deyilən şey hələ kəşf olunmamışdı. İnsanlar şam işığında nahar edir, şam işığında yazır, şam işığında oxuyurdular. O vaxtlar bu gün biz istifadə etdiyimiz nəqliyyat vasitələrinin heç biri yox idi. İnsanlar nəqliyyat vasitəsi kimi at, dəvə və bu kimi minik heyvanlarından istifadə edirdilər. Bizim bir sutkada getdiyimiz yolu o vaxtın insanları bir aya gedirdilər. İndi bizim istifadə etdiyimiz təbii qazdan o vaxtın insanlarının xəbəri belə yox idi. O vaxtın insanları həm yemək bişirmək üçün, həm də isinmək üçün odun yandırmaq məcburiyyətində idi. Bizim təbii qazdan istifadə edərək yarım saatda bişirdiyimiz yeməklərə onlar saat yarıma qədər vaxt sərf edərdilər (Uşaqlıq dövrüm 90-cı illərə təsadüf etdiyi üçün, o vaxtlar isinmək və yemək bişirmək üçün bizim də odundan istifadə etdiyimizi xatırlayıram).

O vaxtlar bizim hazırda istifadə etdiyimiz sosial şəbəkələrdən heç kimin xəbəri belə yox idi. O vaxtlar insanlar məktublarını kağıza yazar, məktubun cavabını isə günlərlə, həttə yerinə görə aylarla belə gözləyərdilər. Baxmayaraq ki, biz indi sosial şəbəkələrdə məktub yazanda, yazdığımız məktubu saniyyələr içində göndəririk və məktubumuzun cavabını az bir vaxtda alırıq.

İndiki dövrdə biz paltar yuyanda müxtəlif yuyucu vasitələrdən istifadə edirik. Həttə paltarı əlimizlə belə yumağa ehtiyac yoxdur. Paltar yumaq üçün paltar yuyan maşından istifadə edirik. Keçmişin insanlarının isə texnologiyanın bu nemətlərinin heç birindən xəbərləri belə yox idi. Ancaq çətin də olsa paltar-palazlarını yuyub təmizləməyi bacarırdılar. Həttə deyərdim ki, buna məcbur idilər.

Bəs o vaxtın insanları əllərində olan imkanlarla xoşbəxt idimi? Böyük ehtimalla bəli, çünki hazırda bizim istifadə etdiyimiz texnologiya nemətlərindən xəbərsiz idilər. Bəs biz əlimizdə olan imkanlarla indi onlardan dahamı xoşbəxtik? Bu suala xeyir cavabı vermək olar. Elektrik enerjisinin kəşfindən sonra yaşayışımız asanlaşmağa başladı deyə biləərik. Soyuducu, paltaryuyan maşını kimi yaşayışımızı yüngülləşdirən vasitələr icad olundu. Ən sonunda isə telefonun, kompüterin və nəhayət internetin kəşfi ilə uzaq məsafələr bir addım qədər yaxınlaşdı. Buraya qədər hər şey çox gözəl idi.

Texnologiya inkişaf etdikcə insanlar texnologiyanın əsiri olmağa başladı. İnsanlar ehtiyac duyulmasa belə ən son çıxan texnologiya məhsullarına maraq duymağa başladı. İmkanı olan biri böyük ekranlı televizor alanda, imkanı olmayan biri də ondan geri qalmamaq üçün bu məhsulları kreditlə əldə etsin deyə cəht etməyə başladı. Əvvəllər yalnız, necə deyərlər, "zəng gəlib, zəng getsin" dedikləri telefonlar bizim üçün lüks olduğu halda (xatırlayanlar olar, bu telefonlara sahib olmaq necə sevindirərdi bizi) indi kiminsə bu telefonlardan işlətdiyini görsək onları zəmanə ilə ayaqlaşmayan insanlar olaraq tanıyarıq. Bir sözlə, artıq bizim üçün lüks olan şeylərin ünvanı dəyişdi, gələcəkdə daha da dəyişməyə davam edəcək. Böyük şirkətlər reklamlar vasitəsilə bizdə süni ehtiyaclar yaratdıqca və bizlər duyğularımızla hərəkət edib bu süni ehtiyacları qəbul etdikcə texnologiyanın əsiri olmağa davam edəcəyik.



**Vüqar VƏKİLOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## TƏBİƏTİN VƏ TARİXİN HARMONİYASI

## 1.YENİLİKLƏRƏ QAPI AÇAN ÖLKƏNİN TARİXİNDƏN YARPAQLAR



Niderland cəmiyyəti yenilikçi cəmiyyətdir, yeniliklərə açıq cəmiyyətdir. Ölkənin, xalqın yararına olan istənilən yeniliyin tətbiqi burada özünü çox da gecikdirmir. Mühafizəkarlıq arxa plandadır, yeniliklərə müqavimət göstərəcək, onların qarşısında çəpər ola biləcək gücdə deyil. Niderlandın yenilikçiliyə meyilli olmasının kökləri onun tarixinin dərinliklərində gizlənir. Fərqli fikirlərinə görə katolik kilsəsinin təqibindən, inkvizisiya tonqallarında yandırılmaq qorxusundan öz ölkələrini tərk edən protestantlara, yəhudilərə qucaq açıb, yer verməklə Niderland, həm də onların öz zamanına görə yenilikçi fikirlərinə, öz vətənlərində tətbiqini tapa bilməyən biliklərinə ev sahibliyi etməyə başlayır. Fransadan baş götürüb qaçan huqenotlar, İspaniyadan gələn yəhudilər, ayrı-ayrı ölkələrdə Jan Kalvinin kilsə islahatlarına tərəfdar olan kalvinistlər axın-axın Niderlanda üz tutub, burada həm özlərinin rahatlıqlarına qovuşur, həm də bu ölkəni şenləndirirdilər.

Bu gün cəmi 41.526 kvadrat kilometrlik əraziyə və təxminən 17 milyon 333 min nəfər əhaliyə malik olan Niderland müasir simasını alanadək uzun və şərəfli mübarizələrdən keçmişdir. Niderland yüzilliklər boyu apardığı savaşlardan sonra ülgülənmiş, biçimlənmiş, müasir şəklinə sahib olmuşdur. Miladdan öncədən başlayaraq Niderland torpaqları Avropanın böyük dövlətlərinin marağında olmuş, zaman-zaman bu böyük dövlətlər öz qılınclarını, nizələrini bu torpaqlara sancmış, burada onların bayraqları dalğalanmışdır. Roma imperiyasının ağalığı sona çatsa da, onu Frank dövlətinin, alman xalqının, müqəddəs Roma imperiyasının, İspaniyanın əsarəti əvəz etmişdir. XVI-XVII yüzilliklər Niderland xalqının azadlıq tarixinin qızıl səhifəsi olmuş, o, 1581-ci ildə müstəqilliyini elan etmiş, bu müstəqillik İspaniya tərəfindən yalnız 1648-ci ildə tanınmışdır. Niderlandın qurdlar süfrəsindən öz payını, yəni müstəqilliyini alması elə-belə baş verməmiş, asanlıqla qazanılmış bir hadisə deyil. Müstəqillik Niderlanda bayram xonçası kimi təqdim edilməyib. Niderland azadlığını öz xalqının iradəsi, verdiyi çoxsaylı qurbanların hesabına qazanıb. Savaşlarda qazanılmış azadlıq, müstəqillik Niderland xalqının halal haqqıdır – ana südü kimi halal haqqı. Müstəqillik uğrunda aparılan və tarixə 80 illik müharibə kimi daxil olan mübarizənin nəticəsində qazanılmış azadlıq hollandlar üçün çox dəyərlidir. Müstəqillik uğrunda mübarizə ilə paralel şəkildə ölkədə yenidənqurma işlərinə start verilmiş, bir əsrdən artıq müddətdə Niderland həm siyasi, həm iqtisadi, həm də mədəni sahədə böyük ilklərə imza atmaqla, məzhəb çatışmalarına son verməklə özünün tarixi sıçrayışını etmiş, müasir dünyada söz sahibi olduğunu təsdiqləyə bilmişdir. İlk burjua inqilabının müəllifi olan hollandlar, İntibah dövründə Niderland Renessansı deyilə biləcək bir fenomenin də yaradıcılarıdır. Rubens, Rembrandt kimi fırça ustalarının varlığı bunu birmənalı şəkildə təsdiqləyir.

Müstəqilliyin elanı ölkənin taleyi üçün önəm daşıyan qərarların qəbul olunmasına, müstəqilliyin davamlı və əbədi olması üçün mühüm addımlar atılmasına gətirib çıxardı. İqtisadi inkişaf hər sahədə özünü göstərməyə başladı. Bu yolda büdrəmələrin, ana yoldan sapmaların olması da qaçılmaz idi. Ancaq yanılmalara rəğmən Niderland xalqı müstəqillik yolunda mətin addımlar atmaqda idi. Hələ İspaniyanın düşmənçiliyinin davam etdiyi bir vaxtda gəmiçiliyin inkişaf etdirilərək, ölkənin dünyanın dörd bir yanı ilə əlaqələrinin intensivləşdirilməsi, 1600-cü ildə, istiqlalın elanından cəmi 19 il sonra gəmi sayının 10 minə çatdırılması Niderlandın düzgün yolda yürüdüyünün sübutu idi. Niderland dənizçilərinin gəmilərinin avarları okean sularını yararaq Yeni Dünyaya – Amerikaya çatmağa imkan verirdi. Onların gəmilərinin yelkənləri Asiyanın isti küləkləri ilə dolaraq uzaq Yaponiyaya qədər hərəkət edə bilirdi. Müstəqilliyin elanından dərhal sonra başlayıb həyatın bütün sahələrini əhatə edən sürətli inkişaf yüz ildən çox davam etmiş, sonrakı nəsillər tərəfindən Qızıl Dövr kimi qiymətləndirilmişdir. Və bu dövrü sözün bütün mənalarında ölkənin qızıl dövrü adlandıranların nə qədər haqlı olduqlarını müasir Niderland bütün parametrləri ilə təsdiqləməkdədir.

İkinci Dünya müharibəsində bitərəf qalmağa üstünlük verən Niderlandın bu niyyəti özünü doğrultmadı. Bütün Avropanı nasist ideyalarının məkanına çevirmək istəyən Adolf Hitlerin qəzəbi Niderlanddan da yan ötmədi. Gestaponun bilərəkdən yaratdığı "Venlo hadisəsi"ni bəhanə edən Hitler Niderlanda hücum əmri verdi. Bu ölkənin faşistlərə inadlı müqaviməti Hitlerin qəzəbini daha da coşdurdu və o, Niderland şəhərlərinin bombardman edilməsini, əhalinin müqavimətinin qırılmasını əmr etdi. Onun qəzəbi bu gözəl ölkənin bir çox şəhər və kəndlərinin darmadağın edilməsinə, Rotterdam kimi böyük liman şəhərinin isə az qala yer üzündən silinməsinə gətirib çıxardı. Müharibəni dağıntılarla, təlafatlarla başa vuran Niderlandın xarabalıqlar üzərində yeni bir ölkə qurması gərəkdi. Rotterdamın timsalında bunu daha aydın görmək olar. Ölkənin xarabalıqlar altından çıxarılmasında əhalinin mübariz ruhu, qurub-yaratmaq eşqi yenə də qabarıq göründü. Az vaxtda yaralar sağaldı, müasir Niderlandın, belə demək mümkünsə, ikinci doğuşu gerçəkləşdi.

Sözarası bir neçə cümlə ilə, İkinci Dünya müharibəsində Hollandiya Müqavimət Hərəkatında iştirak edən, göstərdiyi igidliklərə görə holland partizanları arasında Medo ləqəbiylə tanınan, göstərdiyi şücaətə və müharibədən sonra heç bir mənfəət güdmədən ictimai işlərdəki xidmətlərinə görə "Oranc-Nassau Kral ailəsinin Cəngavəri" ordeni, "Müqavimət döyüşçüsü", "Sədaqətli Xidmət" medalları almış, Niderland kral ailəsinin fəxri üzvü, Osterveyk şəhərinin ilk fəxri vətəndaşı olmuş azərbaycanlı Məmməd Məmmədov haqqında danışmasam olmaz. Məlumatlı oxucularımızın bu şəxs barədə müəyyən bilgilərinin olacağına da ümid edirəm. Məmməd Məmmədov Zaqatalanın Muğanlı kəndində doğulmuş, İkinci Dünya müharibəsində almanlar tərəfindən əsir alınaraq Niderlanda gətirilmişdir. O, burada əsirlikdən qaçaraq holland partizanlarına qoşulmuş və qısa müddətdə igidliyi ilə ad-san qazanmışdır. Müharibədən sonra həyatını bu ölkə ilə bağlamış, sevdiyi holland qızla evlənmiş və ömrünün sonunadək burada yaşamışdır. Osterveyk şəhərində yaşayan Məmməd Məmmədov 2003-cü ildə bu şəhərdə də vəfat etmişdir. Müqavimət hərəkatında fəaliyyət göstərdiyi Osterveyk şəhərində adına küçə və park var. Bu yerdə deyirlər: igid ölər, adı qalar. Bu da başımızı uca edən faktlardan biri. Təəssüf edirəm ki, mənim Niderlandın milli qəhrəmanı Məmməd Məmmədovun taleyini bağladığı Osterveykə yönüm düşmədi, onun adıyla bağlı olan yerlərə baş çəkə bilmədim.

Məqsədimin Niderland tarixini araşdırmaq olmadığını söyləmədən olmaz. Amma oxucuya Niderland tarixinin önəmli, yaddaqalan, daha qabarıq görünən məqamları barədə nələrisə demədən də keçmək istəmirəm. Verdiyim ipucları vasitəsilə müasir Niderlandı daha yaxşı tanıtmaq niyyətimi gizlətmirəm. Yalnız bu məqsədlə Niderland tarixi üçün əhəmiyyətli bir neçə epizodu verirəm. Bu ölkə əhalisinin mübarizliyini anlamaq üçün bu epizodların yada salınması çox vacibdir.

Hollandlar mübariz xalqdır. Bu ölkəni böyük bir orkestrə bənzətsək həmişə birinci skripkada mübarizənin virtuoz ifasını görəcəyik. Bu xalqın mübarizəsinin ön planda olması bütün faktlarla təsdiqini tapır. Əlini hara atsan bu faktları tapacaqsan. Onlar təkcə yadellilərə qarşı mübarizədən deyil, təbiətlə mübarizədən də qalib ayrılmış xalqdır. Savaşlar nəticəsində böyük ərazilər itirən əhali, itirilmiş ərazilərin yerini doldurmaq, torpaq qıtlığını aradan qaldırmaq üçün dənizlə mübarizə aparmaq məcburiyyətində qalmış, su stixiyasını ram edərək, yeni torpaqlar qazanmış, ölkə ərazisini genişləndirməyə müvəffəq olmuşdur. Ölkə ərazisində mövcud olan yel dəyirmanları təbiətlə mübarizənin simvolu kimi bu gün də əzəmətlə dayanaraq, holland xalqının əzmkarlığını, mübariz ruhunu indiki nəsillərə anlatmaqdadır. Düzdür, dənizlə mübarizə, onu geri çəkilməyə məcbur etmə xalqa asan başa gəlməmiş, xalq dəfələrlə dənizin əks-hücumuna məruz qalmış, böyük qurbanlar vermişdir. Ölkə ərazisini dəfələrlə sel basmış, böyük təlafatlar meydana gəlmişdir. Tarixi qaynaqlarda onlarla sel fəlakətindən bəhs edilir və mən onlardan bir neçəsini örnək verəcəm.

1404-cü ildə tarixə Müqəddəs Yelizaveta seli kimi daxil olan təbii fəlakət baş verir. Noyabrın 18-də katolik kilsəsi Yelizavetanın anım gününü qeyd edir. Sel də həmin günə təsadüf etdiyindən Müqəddəs Yelizaveta adlandırılır. Qəribədir ki, 1421-ci ilin 18-19 noyabrında da belə bir fəlakətin miqyası 1404-cü ildəkindən dəfələrlə böyük olur. Əhalinin sıx yaşadığı 72 yaşayış məntəqəsini sel suları yuyub aparır. Minlərlə insanın bu selin qurbanı olduğu söylənilir. Böyük bir fəlakət yaşanır. Sonuncu belə bir fəlakət isə ötən əsrdə, daha doğrusu 1953-cü ildə qeydə alınmışdır. Yanvarın 31-dən fevralın 1-ə keçən gecə baş vermiş bu fəlakət nəticəsində Böyük Britaniya, Almaniya, Danimarka, Belçika, Niderland və Norveçdə 2400 nəfərə yaxın adamın həlak olduğu, qurbanların 1800-dən çoxunun Niderlanda aid olduğu da məlumdur. 2007, 2009-cu illərdə baş verən sel zamanı isə qurbansız ötüşmək mümkün olmuşdur.

Ölkədə məşhur bir məsəl var: "Allah dünyanı yaratmış, hollandlar isə Niderlandı". Bu məsəl öz varlığını indi də davam etdirməkdədir. Niderlandda dənizdən torpaq alınması ötən əsrdə də davam etdirilmiş, bu gün də bu proses getməkdədir. Holland möcüzəsidir. Düzdür, dənizin qurudulması bu gün dünyanın bir çox ölkələrində – Fransa, Yaponiya, Belçika, Bəhreyn, Sinqapur kimi ölkələrdə də uğurla sınaqdan keçirilir. Xalqımızın Xəzərdə Neft Daşları adlı möcüzə yaratdığını da unutmamışam. Bizim bu möcüzəmizi holland möcüzəsi ilə müqayisə etməyim, qarşılaşdırmam inanın ki, mənim xeyli sevinc hissi yaşamama nədən oldu.

Bəzən kimdənsə nümunə götürüləcək bir təcrübə olmur. Xalq hər şeyi öz üzərində təcrübə etməyə, öz üzərində eksperiment aparmağa məcbur qalır. Yoxluqdan varlığa doğru yol başlayır. Yoxluqdan yola çıxaraq Niderland adlı bir möcüzə yaratmağın əsasında xalqın mübarizliyi dayanır. Mübarizlik sözünü bir neçə dəfə təkrar etdiyimin fərqindəyəm və növbəti abzasda hələ bir neçə dəfə də istifadə edəcəyim indidən özünü göstərir.

Niderland cəmiyyəti mübariz cəmiyyətdir. Bu mübarizə əzmi sərhəd tanımır. Bu mübarizə kiçik idman meydançasında da mübarizədir, məsələn, futbolda, böyük savaş meydanında da. Bu cəmiyyətə mübarizliyi hər bir şəxsin fərdi məsuliyyətini dərk etməsi qazandırıb. Bu mübarizlik cəmiyyətə təhlükələrə qarşı birgə hərəkət etməyi, hədəfə doğru birlikdə yürüməyi öyrədib. Məişətdən tutmuş ən üst siyasətə qədər bu prinsiplər keçərlidir. Niderland tarixi bunun ən gözəl sübutudur. Niderland bunu bugünü ilə də isbatlaya bilir. Mübarizliyin, məsuliyyətin, birliyin nəticəsi göz qabağındadır: saat kimi nizamlı müasir Niderland. Görünən dağa da bələdçi gərəkmədiyini hamımız bilirik. Sadəcə bir fikrimizi də səsləndirək. Müasir Niderlandın indiki şəkil almasının arxasında xalqın birliyi, birgə zəhməti dayanır.

**Afiq MUXTAROĞLU**
*Niderland*

# İOSİF QRİŞAŞVİLİNİN "QƏDİM TİFLİSİN ƏDƏBİ BOHEMASI" ƏSƏRİNDƏN BİR PARÇA

## YETİM GÜRCÜ

*(əvvəli ötən sayda)*

Vaxtanq Kotetişvili rəssam Pirosmanini Yetim Gürcü ilə müqayisə edib (Bax: "Sovet incəsənəti", 1927-ci il, № 5).

Müqayisə doğru və düzgündür.

Hər ikisinin yaradıcılığı bir ağuşdan çıxıb.

Hər ikisi primitivdir.

Əgər "Zavallı Nikala" bir kiçik stəkan arağın dəyərinə mikitanların divarlarını bəzəyirdisə, Yetim Gürcünün canlı sitatları ilə Tiflisin şərab zirzəmiləri sərgilənib:

**1. "Əgər dostdan ayrı düşdünsə,**
**Tamamilə nisyənin günahıdır".**
**2. "Kim qarğadı, kimin qarğışı tutdu,**
**Yetim, göz yaşı həmdəmin oldu".**
**3. "Ehey, a kişi, dəyərini bil,**
**Başına ki, örtübsən papaq;**
**Hamını bərabər sevməlisən,**
**Gürcü-erməni-uriya** *(Huriya, uriyalar – gürcü tarixi mənbələrində yəhudilər belə xatırlanır - M.M.).*
**Hamını irəlidə ölüm gözləyir,**
**Həsəd aparmağa dəyirmi?"**

Yetim Gürcü həqiqi bohemadır. "Harada qaranlığa düşdüm, orada da gecələyim. Ora olsun mənim yurdum-yerim". Barataşvilinin sözləri onun həyatına çox uyğun gəlir. Yapıncını geyinər və odur ki, gedir! Özü də bilmir hara və nəyə görə?

Əgər Qr. Orbelianinin Onikovu sevgilisini qarşılamaq üçün "Yapıncıya bükülmüş" halda "İki balaca pəncərə qarşısında" küçəyə atılmışdısa, Yetim Gürcünün yarı şeir söylədiyi, içki içdiyi və yatdığı "Orxida" dükanıdır. Paolo İaşvilinin Yetim Gürcü barədə bədahətən dediyi olmasın:

**"Mənim öz mənzilim yoxdur,**
**Mən ötən gecə daş üzərində yatmışam!"**

Niyə? Yetim Gürcünün də var mənzili, Avlabarda, harada ki, aylarla olmur. Onun otağının daş plitələrinin boylandığı pəncərəsində dörd dildə – gürcücə, rusca, fransızca, ermənicə yazı yapışdırılıb: **Yetim Gürcü.**

Yetim Gürcü adından göründüyü kimi, yetim gürcü deməkdir. O, doğrudan da erkən yetim qalıb. Atası öləndə o, çox balaca imiş. Anası da ərə gedib və Yetim həyatın pyedestalına təkbaşına qədəm qoyub *(Bu günlərdə Yetim Yazıçılar İttifaqının adına nəzmlə yazdığı ərizəni mənə verdi: "Bu qədər yetimliyim bəsdir, məni də sizin ittifaqa qəbul edin":*

*"Yazıçılar dəstəsindən məni ayrı salmayın, kim ki, məni indi tanıyır şəxsən;*

*Sizin dəftərə məni də yazın, gürcü anam balası kimi.*

*Təməlində mənim də payım var, baha oturub günlər mənə;*

*Bəsdir bu qədər yetimlik, dezertir gəzdirməyin məni").*

Yetim Gürcü köhnə xarpuxludur. Kasıb dabbağ ailəsində 1875-ci ildə anadan olub. Məktəbi gözünün ucu ilə də görməyib.

Yazıb-oxumağı kağız cığalalarında öyrənib.

Yetimin yaxşı səsi vardı. Toylara aparırdılar və odövrkü şairlərin şeirlərini oxudardılar.

Özü də şeirlər yazmağa və yaxud Xelokataynovun dediyi kimi, "öz beynindən mahnılar çıxarmağa" başladı və yavaş-yavaş populyar oldu. Camaat heyranlıqla söyləyirdi:

- Yetim Gürcü gəlir!
- Yetim Gürcü oxuyur!
- Yetim Gürcünün səsidir!
- Yetim Gürcünü gördüm!
- Yetim Gürcü kef çəkirdi!

O, doğrudan da "kef üçün" doğulub. Bu gəzərgi bohema normal durumla qane ola bilməz. O, əsəbləri məhəbbətlə və şərabla zəhərlənəndə yaxşı əhval-ruhiyyədə olur:

**"Səni şöhrətləndirirəm, sənə nəğmə oxuyuram,**
**Sənin inamının zahidiyəm;**
**Səninlə tanış olduğum gündən,**
**Özüm özümün düşməniyəm,**
**Dolanıram şərabla zəhərlənmiş,**
**Təkcə sənin üçün oxuyuram,**
**Yetim Gürcünü sən öldürdün,**
**Diri olaraq ölülər sırasına yazılmışam!"**

Ümumilikdə nəzərə çarpır ki, hər bir yazıçı özünün ədəbi karyerasını kiçik şeirlərlə başlayır. Yetim Gürcü bu halda istisnanı təşkil edir. O, özünün ilk mövzusu olaraq "Anabacı"nın *(Əsərdə qadının adı Annadır, Annabaci, Anabacı - M.M.)* geniş sərgüzəştini seçmişdir. Bu poemanın qəhrəmanı qadındır, əfsanəvi qüvvə sahibidir. Farslar (?) cəsurluğuna görə qardaşlığını ifadə edərək onu "Anabacı" adlandırıblar *(Burada yanlışlıq vardır. Farslar deyil, soydaşlarımız olmalıdır. Anabacı bizim dildədir - M.M.).*

Bu qadın bütün məşhur pəhləvanları məğlub edir. Biləyində Rüstəmin gücü var və qılınc oynatmağı da bacarır:

**"Boy-buxunlu, qara gözlü, qara qaşlı, alnına şahlıq yazılıb,**
**Üzü bədirlənmiş ay, çənəsində xalı vardır;**
**Saçının uzunluğu topuğuna qədər, həddən artıq gözəldir,**
**Ürəyi, sinəsi, biləkləri Rüstəmə bənzəyir.**
**Adi olaraq sol tərəfində xəncər asılıb,**
**At belində cilov çəkdiyini kim görüb;**
**Oyunçu, atoynadan, qılınc əlində hazırdır;**
**Güləş, yumruq vurmaq onun icad etdiyidir,**
**Bir zərbə ilə camışı yıxar, nə istəyirsən, dəli olub,**
**Heç kim salamat çıxa bilməz onun əlindən".**

"Tiflisli qadın və Muxatlı gəlin Anna" belə imiş. Xalq arasında bu Anabacı barədə xalq müxəmməsi mövcuddur. Bu şeiri də tam şəkildə verəcəyik ki, bu müəllifsiz və iddiasız yaradıcılığı unutqanlıq tozu basmasın:

**"Götürək, dünyanın aşıqları bir yerə yığılsın**
**Və hamısı öz cəngilərinə** *(Cəngi – arfaya bənzər qədim musiqi aləti - M .M.)* **müraciət etsin,**
**Annanın tərifini hər halda tam verə bilməzlər,**
**Əgər yenə Şotanın havaları olmasa!**

**Batonidən almışam ixtiyar,**
**Müraciət edir mənim cəngim, ebanim** *(Ebani – qədim gürcü çoxsimli musiqi aləti - M.M.),*
**Əgər başlasam Anabacının tərifinə, –**
**Dünyanın qadınları onun yanında danqilərdir** *(Danqi – qədim çəki vahidi, 12 ədəd arpa dəninin çəkisinə bərabərdir, indi misqalın dörddə biri - Müəllif)!*

**Gördüm, cıdır ordusundadır,**
**At üstündə oturan bəzənmiş, zər içindədir:**
**Hamı tanıyır, Anna Gürcüstandadır,**
**Arzu edirlər farslar, hindlilər, fransızlar.**

**Üzündən nur yağır, nura bələnmiş üz kimi,**
**Döyüş meydanına güllə kimi atılır,**
**Düşməni ayaq altda əzir soğulcan kimi,**
**Türklər, zəncilər qul kimi təzim edirlər.**

**Annaya Gürcüstan xeyir-dua verdiyindən,**
**Döyüş meydanında çoxlu düşmən məhv etdi,**
**Çar ona gümüş qılınc bağışladı,**
**Adına vətənin mükafatları yazıldı.**

**Mən də qəhrəmanam, həsədlə baxma mənə,**
**Sən qılınclasan, mən çianuri ilə,**
**Qarşılayaram səni yeni Sayat-Nuri ilə** *(Sayat-Nova - M.M.),*
**Amağlebaya** *(Xristianlıqda bayram, İsa peyğəmbərin səmaya qalxması - M.M.)* **əgər təşrif buyursan".**

Yetim Gürcünün "Anabacı"sına gəldikdə, demək lazımdır ki, o, canlı xalq dilində yazılıb. Halbuki, müəllif Anabacının qəhrəmanlıq fəaliyyətini birtərəfli işıqlandırıb və "Böyük batoni"nin *(Çarın - M.M.)* silahdaşı olan qadını yalnız güləşçinin yenilməz güc-qüvvəti ilə bizə təqdim edib.

Yetimin Anabacısı qeyri-adi qüvvə ilə mükafatlanan qadındır.Təkcə bir və iki kişini deyil, eləcə də bütöv bir sıra müxtəlif guşələrin "tanınmış" pəhləvanlarını məğlubiyyətə uğradıb.

Bax, Yetim Gürcünün qələmi belə bir güləşin seyrini və Annanın igidliyini necə bir çalarlarla təsvir edir:

**"Qurşağı belinə doladı, camaat tamamilə heyrətləndi,**
**Atıldı meydana, hamı ona göz dikmişdi,**
**Gözəl gəlin kimindir görəsən, nə istəyir?**
**Güman ki, öpüş üçün gəlib, yoxsa nə edə bilər ki!**
**Ortaya atıldı Georgi, tərifli teletli;**
**Anna onun üstünə cumdu, yerə vurdu, bədəni şil-küt oldu.**
**İkinci onun yanından ötdü – Sosia Barbareli,**
**Lakin yerə elə dəydi ki, əli ilə heç yerdən yapışa bilmədi;**
**Üçüncü oğlan ortaya atıldı – İvane Vaşlovanlı,**
**Çiyinləri elə qırıldı ki, həkimlik oldu.**
**Təkgöz oğlan oynayır, adı "Qəhrəman Eli",**
**Onun da yediyini-içdiyini burnundan gətirdi;**
**Sopromuka da hucuma keçdi, bir məni buraxın, - dedi,**
**Anna bir nərə çəkməklə onu yerə pərçimlədi.**
**Annanın üzərinə söyə-söyə, yumruğunu yellədərək Sirac Qola atıldı,**
**Anabacı onu qarpız kimi camaata doğru tolamazladı.**
**...Həmin gün iyirmi iki nəfər hücuma keçdi, heç birinin bacarığı yox idi,**
**Sənin qadınlığına qurban olum, valideynlərinə rəhmət!..**
**Sevinclə evə döndü bütün Muxat eli, Muxat kəndi."**

Bu poema Dabğişvili təxəllüsü ilə tanınır və bir necə nəşrlə çap olunub *(Son dəfə Mix. Qaçeçiladze nəşr edib. Yetim Gürcünün "Anabacı"sından başqa bu kitablar: "Yeni ozan", "Yetimin yeni şeirləri", "Tanqo", "Böyük müharibə" və "Sübh açıldı" kitabları nəşr olunub).*

Bütün kitablar "Arsenin şeiri" üsulunda, on altı hecalı şeir formasında yazılıb.



Analoji olaraq: Xalq arasında Anabacıya bənzər qüvvətli qadınlar: Tsğnetli Maya barədə, Tsavkisli Tina barədə və Vaşlovanlı Tamro barədə əfsanələr mövcuddur. Yetim Gürcünün Annası yumruq davaçısı kimi istifadə olunub. Xalqın fantaziyası bu qadınların sayını daha çox bir əl çəkməklə artırır və protestant qəhrəman qadınlar kimi, qaçaq düşənlər, təhkimçiliyi inkar edənlər, bərabərhüquqluğu müdafiə edənlər və kişilərlə birlikdə Gürcüstanın rifahı naminə mübarizlər kimi təqdim olunub *(Bax: Dimitri Çanaşvilinin "Tarixi mənzərələr", 1914-cü il, səh. 265. Al. Qarsevanişvilinin "Qaçaq adlanan qəhrəman qadın Maya" (Kutaisi, 1915-ci il) Mir. Xuxunaişvilinin "Maya Tsğneteli - Çar İraklinin rəqibi" romanı (Tbilisi, 1924-cü il)).*

Yetimin poemasında isə çoxlu artıq hiperbola və kinosayağı effekt vardır, sərrast ifadələr də vardır, halbuki bütün poema müəllifin kiçik şeirlərinin qazandığı ada layiq deyildir:

**"Ləl, zümrüd, firuzəsən,**
**Dünyanın gözü səndədir,**
**Adəm bağının milçəyisən,**
**Gözəllər arasında xaç tuzsan!**

**Mənim ikonam, mənim tanrım!**
**Sənin şəklin üzərində şam kimi yanım;**
**Xahiş edirəm, mərhəmət eylə,**
**Gözəllərin prezidenti!"**

Yetim Gürcünün poetik məsafəsi 1895-ci ildən başlayır. Lakin o, öz adının apogeyinə yalnız bu bir neçə il ərzində nail olmuşdur. Bir dəfə Yetim mənə dedi, mənim şeirlərimi beşikdə də oxuyurlar. Yetim haqlı idi. Hazırda Tiflisin aşağı təbəqə əhalisi arasında heç bir şairin şeirləri bu müasir bohemanın mahnıları kimi yayılmamışdır:

**"Tanış olmayaydım başdan, yaxşı olardı;**
**Dəryanın ortasında atdın məni qayıqdan.**
**Mənim qəlbimi sən yaraladın, paraladın,**
**Əlini qızdırırsan, odun alovuna atdın!**

**Heç anlamırsan mənim yazı-pozularımı!**
**Niyə sevirəm səni, nədən soruşmursan?**
**Hansı ozandan soruşum haqqı-ədaləti,**
**Kimə şikayətlənim, Rustaveli sağ deyil!"**

Yetim Gürcü öz mahnılarında qədim şairlərdən yalnız iki şairi: Rustaveli və Sayat-Novanı xatırlayır:

**1. "Matəm bayrağını Sayat-Novanın, almışam əlimə.**
**Rustaveli kimi monastırda mən zahid oldum".**
**2. "Qonağıq biz bu dünyanın xanasında,**
**Bir gün bu dünyadan gedəcəyik;**
**Yetim Gürcü dua edir: Aydınlıqda olasan!**
**Sən saldın məni Sayat-Novanın gününə".**

*(ardı gələn sayda)*

**Gürcü dilindən tərcümə edən:**
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com “იენი იოლი” საზოგადოებრივი გაზეთი HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur. 31 AVQUST 2021-Cİ İL №016 (139)

# PEYVƏNDDƏN İMTİNA EDƏNLƏR QANUNU POZURMU?



**Kütləvi peyvənd və peyvəndə çağırmalar ictimaiyyətin bir qismində narazılığa səbəb olub. Peyvənd vurdurmaq istəməyənlər deyir ki, belə çağırışlarla onların hüququ pozulur. Bu məsələni ictimai sağlamlıq barədə Gürcüstan qanunu tənzimləyir. Qanundan hissəni sizlərə təqdim edirik:**

**Başlıq II. İctimai sağlamlıq sahəsində əhali və hüquqi şəxslərin hüquq-öhdəlikləri (maddə 5):**

***1. Gürcüstan ərazisində olan bütün insanlar məcburdur:***

• Yoluxucu və yoluxucu olmayan xəstəliklərin yayılması təhlükəsi yaradan, sağlamlıqla bağlı risklər yaradacaq işlər həyata keçirməsin;

• Yoluxucu xəstəliklərin aşkarlanması və yayılması təhlükəsi olduğu halda səlahiyyətli qurumların tələbilə başqa şəxsin sağlamlığı ilə bağlı təhlükəni aradan qaldırmaq üçün tibbi prosedurları keçsin;

• İctimai sağlamlığa təhlükə yaradan fəaliyyəti dayandırsın;

• Sanitar və epidemioloji normalara riayət etsin;

• İctimai sağlamlıq xidmətinə istehsal və texnoloji proseslərdə sanitar normaları pozma nəticəsində yaranmış fövqəladə vəziyyət barədə məlumat versin;

• Tibbi əks təsirlərin olmaması halında yoluxucu xəstəliklərin geniş yayılması, ya da epidemiyanın başlaması təhlükəsi zamanı peyvənd vurdursun;

• Əgər onun işi yoluxucu xəstəliklərin yayılmasının yüksək riski ilə əlaqədardırsa profilaktik peyvənd olunsun;

• Gürcüstan qanunvericiliyi ilə tətbiq edilmiş qaydada və tətbiq edilmiş çərçivədə profilaktik peyvəndlərin milli təqviminə riayət etsin.

***2. Gürcütsan ərazisində olan bütün insanların hüququdur:***

• Tibbi xidmət göstərən müəssisədə yoluxucu xəstəliklərdən müdafiə olunsun;

• Məsələ epidemiya, yaxud pandemiyaya aid deyilsə profilaktik tədbirlərin aparılmasından imtina etsin; Fəaliyyəti yoluxucu xəstəliklərin yüksək riski ilə əlaqəli olan şəxslərin profilaktik tədbirlərdən imtina etmək hüququ yoxdur.

• Sağlamlıq üçün təhlükəsiz şəraitdə yaşasın.

• Profilaktik peyvəndin əsası və əhəmiyyəti, gözlənilən kliniki çıxış yolu, peyvəndə aid risklərlə bağlı vaxtında və peyvənddən imtina etdiyi halda mümkün olacaq nəticələr barədə məlumat alsın.

Bu maddənin tələblərinin icra edilməməsi Gürcüstan qanunvericiliyi ilə cəzalandırılır.

Həmin qanunda pandemiya zamanı Fövqəladə Vəziyyətin İdarəsi Xidməti və Nazirliyin hüquq-öhdəlikləri də yazılıb:

***Maddə 12. İctimai səhiyyə üçün xüsusilə təhlükəli olan epidemiya və pandemiya zamanı fövqəladə vəziyyətin idarə edilməsi:***

İctimai sağlamlıq üçün xüsusilə təhlükəli olan epidemiya və pandemiya fövqəladə vəziyyətə aid edilir və onun idarə edilməsi “mülki təhlükəsizlik barədə” Gürcüstan qanununa uyğun olaraq həyata keçirilir.

İctimai sağlamlıq üçün xüsusilə təhlükəli olan epidemiya və pandemiya zamanı Fövqəladə Vəziyyətin İdarəsi Xidmətinin və Nazirliyin hüquq-öhdəlikləri bunlardır:

a) İctimai sağlamlıq üçün xüsusilə təhlükəli olan epidemiya və pandemiyadan yaranmış vəziyyətin idarə edilmə koordinasiyası;

b) Müvafiq dövlət orqanları ilə koordinasiya nəticəsində epidemioloji mənbələrin sərhəddinin dəyişdirilməsi ilə bağlı qərar qəbul etmək;

c) Epidemioloji mənbədə olan hər hansı fiziki şəxsin tibbi yoxlayışdan keçməsi tələbi;

ç) Epidemioloji mənbədə olan hər bir şəxs üçün müvafiq xidmət vasitəsi ilə karantin tədbirlərinin aparılmasını təmin etmək;

d) Lazım olan halda epidmeioloji əhatədə olan şəxsin köçürülməsini təmin etmək;

e) Epidemiya zamanı epidemioloji mənbəyə fiziki şəxslərin daxil olması və həmin mənbədən onların çıxarılmasına nəzarətin təmin edilməsi;

ə) Epidemioloji mənbəyə nəqliyyatın daxil olması və həmin mənbədən onun çıxmasına nəzarətin təmin edilməsi;

f) Hər hansı yükün, mal və poçt göndərişinin yoxlayışını təmin etmək;

g) Müvafiq epidemiyaya qarşı tədbirlərin aparılması məqsədilə maddi resursların və nəqliyyatın səfərbər edilməsi;

h) Epidemiya zamanı ictimaiyyətin media vasitəsilə məlumatlandırılmasını təmin etmək;

x) Xəstələrin xəstəxanaya yerləşdirilməsi və təcridini təşkil etmək;

i) Xəstələrlə təmasda olmuş şəxslərə qarşı karantin tədbirlərinin aparılmasının təmin edilməsi;

j) Ərzaq istehsalı, çatdırılması və daşınmasına nəzarətin təmin edilməsi;

k) Əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi və çirkli suyun təmizlənməsi işlərinin təşkil edilməsi;

q) Aparılacaq tədbirlər barədə əhalinin məlumatlandırılmasının təmin edilməsi;

l) Bələdiyyə orqanları ilə birlikdə fövqəladə vəziyyət zonasından çıxan bütün marşrutlara nəzarət məntəqəsinin fəaliyyətini təmin etmək.

*Həmçinin qanunun 35-ci maddəsinə görə, ictimai sağlamlığın müdafiəsi məqsədilə Səhiyyə Nazirliyi və Gürcüstanın Təhsil və Elm Nazirliyi təhsil-tərbiyə müəssisələri üçün birlikdə sanitar və gigiyenik normalar tətbiq edir.*

*Mənbə: etaloni.ge*

## NİGERİYA ƏSİLLİ BİZNESMEN TBİLİSİ MERİ VƏZİFƏSİNƏ NAMİZƏDDİR



Mərkəzi Seçki Komissiyasının saytında yerləşdirilən məlumata əsasən, Gürcüstanda yaşayan Nigeriya əsilli iş adamı Arinze Riçard Oqbunucu Tbilisi meri vəzifəsinə namizəd kimi qeydiyyata alınıb.

A.R.Oqbunucunun namizədliyini “Bizim birləşmiş Gürcüstan” adlı təşəbbüs qrupu irəli sürüb.

A.R.Oqbunucu 20 il bundan öncə Gürcüstana köçüb. O, gürcü xanımla evlidir və gürcü dilini yaxşı bilir.

Qeyd edək ki, Gürcüstanda yerli özünüidarəetmə orqanlarına seçkilər bu il oktyabrın 2-də keçiriləcək.

## APELYASİYA ÜÇÜN ÖDƏNMİŞ PUL GERİ QAYTARILACAQ




İmtahanların nəticələrinin yayımlanmasından sonra Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi məlumat yayıb ki, aplikantlar apelyasiyalara ödənmiş pulun geri qaytarılması üçün 25 avqustdan xüsusi forma doldurmalıdırlar.

Apelyasiyadan sonra imtahan nəticəsi dəyişdirilmiş, yaxud etiraz ərizəsi verməkdən imtina etmiş abituriyentlərə ərizə əsasında apelyasiyaya ödədikləri pul geri qaytarılacaq.

Vahid Milli İmtahanların nəticəsini şikayət etmək üçün ödənmiş pulu qaytarmaq üçün doldurulmuş ərizələr 25 avqust, saat 10:00-dan 25 sentyabr, saat 18:00-a qədər elektron şəkildə (naec.ge saytında) xüsusi proqramdan istifadə etməklə qəbul olunacaq.

Pul ərizələrin qəbulundan bir ay müddətində aplikantın qeyd etdiyi hesaba köçürüləcək.

*Mənbə: etaloni.ge*

## ÖLKƏDƏ İŞSİZLİK 22,1 % TƏŞKİL EDİB




Milli Statistika İdarəsinin məlumatına əsasən, bu ilin ikinci rübündə Gürcüstanda işsizlik səviyyəsi 22,1 % olub.

Məlumatda bildirilib ki, göstəricidə illik müqayisədə 3,8 % artım qeydə alınıb.

Aprel-iyunda şəhərlərdə işsizlik 24,1 % (+2,3 %), kənd yerlərində isə 19 % (+6,2 %) təşkil edib.

Kişilər arasında bu göstərici illik müqayisədə 5,7 % artaraq 24,5 %, qadınlar arasında isə 1,2 % artaraq 18,9 %-ə yüksəlib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.